BU GÜNDƏLİK

# Nikki C. Maksvelindir

*ŞƏXSİ VƏ MƏXFİ*

Tapsanız, xahiş edirəm, mükafat qarşılığında MƏNƏ göndərin!

(KƏNAR ADAMLARIN OXUMAĞINA İCAZƏ VERİLMİR!! ☺)

# Rachel Renée Russell

# DORK diaries®

## Tales from a NOT-SO-Fabulous Life

with Nikki Russell and Erin Russell

Aladdin

New York London Toronto Sydney New Delhi

Reyçel Rene Rassel

# NİKKİNİN gündəliyi

ÇOX DA
Mükəmməl Olmayan
Bir Həyatdan Alınmış
Hekayələr

Nikki Rassel və Erin Rasselə

QANUN NƏŞRİYYATI

Bu kitabda oxuyacağınız hər şey uydurmadır. Tarixi hadisələr və yerlərdən xəyali şəkildə istifadə edilib. Yer və hadisələr müəllif təxəyyülünün məhsulu olmaqla, real hadisə, yer və insanlarla oxşarlığı tamamilə təsadüfi xarakter daşıyır.

**Reyçel Rene Rassel NİKKİNİN GÜNDƏLİYİ**
**Çox da mükəmməl olmayan bir həyatdan alınmış hekayələr**
(Nikkinin Gündəliyi 1)

Janr: uşaq ədəbiyyatı
Yaş qrupu: 12+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 336

Tərcüməçi: Lalə İsmayıl
Redaktor: Hədiyyə Şəfaqət
Dizaynerlər: Ramil Alışbəyli, Rafael Qasım
Korrektorlar: Nigar Abdulla, Şəhla Yarı

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-888-8

© Qanun Nəşriyyatı, 2020
© 2009 by Rachel Rene Russell
All rights reserved

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

Həmişə gözəl bir kəpənək olsa da,
qarışqa koloniyasında ən yaxşı
balaca qarışqa olmaq üçün çalışan
qızım Nikkiyə

31 AVQUST, ŞƏNBƏ

Bəzən anamın BEYİN ÖLÜMÜ keçirib-keçirmədiyi mənə maraqlı gəlir. Bəzi günlər isə bunun reallaşdığına tam əmin oluram.
Elə bugünkü kimi.

Deməli hadisələr bu səhər sözgəlişi hər şeyi bacaran, yeni, çox mükəmməl mobil telefonlardan birini mənə alıb-ala bilməyəcəyini soruşmağımla başladı. Axı, bu telefon mənim üçün həyatda hər şeydən vacibdir. İkinci vacib şey də, yəqin, oksigendir.

Yeni özəl məktəbim "Westchester Country Day"dəki ŞSM (Şirin, Sevimli və Məşhur) qrupuna ancaq möhtəşəm bir telefonla ağıllarını başlarından alaraq girə bilərdim.

Keçənilki orta məktəbimdə telefonu olmayan yeganə şagird mən idim ☹. Ona görə də "eBay"dan özümə ÇOX ucuz qiymətə işlənmiş, köhnə bir telefon aldım. İstədiyimdən daha böyük idi. Amma 12.99 dollara başqa nə ala bilərdim?!.

Telefonumu məktəbdəki dolabıma qoyub, maraqlı dedi-qodular var deyib ətrafa söz saldım. Bax belə, indi hamı YENİ telefonuma zəng vura bilərdi.

Beləcə sosial həyatımın qızışmağını gözləyə-gözləyə dəqiqələri saymağa başladım.

ŞSM qrupundan iki qız dəhlizdə əllərində telefon danışa-danışa mənə tərəf gələndə çox gərgin idim...



Düz dolabımın yanına gəldilər, ÇOX mehriban davranmağa başladılar.

Sonra məni birlikdə nahar etməyə dəvət etdilər. "Hmm... yaxşı" desəm də, içimdə tullanıb-düşür, "xoşbəxt" Snupi rəqsi edirdim...




Ancaq hadisələr istədiyim kimi cərəyan etmədi.

Ən son model "iPhone"um haqqında şaiyələri eşitdiklərini və hamının (yəni ŞSM-in yerdə qalanının) onu görmək üçün ürəyinin getdiyini dedilər.

Elə YENİ "iPhone"um haqqında yox, YENİ telefonum haqqında İSTİ xəbərlərim olduğunu demək istəyib ağzımı açmağa macal tapmamış, telefonum zəng çalmağa başladı.

HƏM DƏ ÇOX UCADAN.

Fikir verməmək üçün əlimdən gələni edirdim, ancaq hər iki ŞSM qızı mənə sanki: "Hə, nə oldu? Cavab verməyəcəksən?!"- deyən nəzərlərlə baxırdılar.




Düzü, cavab vermək istəmirdim, çünki telefonumu görəndə bir az məyus olacaqları ürəyimə dammışdı.

Ona görə də dayanıb səsini kəssin deyə dua etməyə başladım, lakin kəsmədi.

Tezliklə dəhlizdəki başqa şagirdlər də gözlərini mənə zillədilər.